Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində

"İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" Publik Hüquqi Şəxs

# Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

BAKI-2025

AUDITOR

**AZƏRUÇOT**
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Azərbaycan, Bakı şəhəri, AZ 1025
Babək prospekti, 12A, blok C, mərtəbə 4, qapı 2
Tel: +994 12 460 71 12
Mob:+994 50 800 69 59
E-mail: azerucot@gmail.com
Web: www.azerucot.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" Publik Hüquqi Şəxsin Rəhbərliyinə:**

## Rəy

Biz **"İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" PHŞ**-nin (bundan sonra - Agentlik) 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və zərər, məcmu gəlir haqqımda hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, əhəmiyyətli uçot siyasətləri və digər izahlı qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Agentliyin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə mənfəət və ya zərərini, kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

## Rəy üçün əsaslar

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standarlar üzrə məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcədə MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyəti verilmiş şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli tərəflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Agentliyin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Direktor-Auditor**
**Eldar Təhməzov**

Azərbaycan Respublikasının
Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il

Tarix: "23" aprel 2025-ci il

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 12.1 | 28,784 | 1,336 |
| Torpaq, tikili və avadanlıqlar | 12.2 | 208,008 | 166,111 |
| İstismara hazır olan uzunmüddətli aktivlər | 12.3 | 9,446 | 6,830 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **246,238** | **174,277** |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12.4 | 750 | 560 |
| Mal-materiallar | 12.5 | 11,152 | 7,452 |
| Digər ehtiyatlar | 12.6 | 15,364 | 16,999 |
| Sair qısamüddətli aktivlər | 12.7 | 5,706 | - |
| Verilmiş avanslar | 12.8 | 1,843 | 300 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **34,815** | **25,311** |
| **CƏMİ AKTİVLƏR** | | **281,053** | **199,588** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzumüddətli borclar | 12.9 | 1,300,000 | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **1,300,000** | **-** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Digər öhdəliklər | 12.9 | 51,210 | 9,779 |
| Malsatan və podratçılar üzrə kreditor borclar | 12.9 | 37,409 | 57,608 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKƏR** | | **88,619** | **67,387** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,388,619** | **67,387** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 12.10 | 100,000 | 100,000 |
| Dövlət büdcəsi ilə hesablaşmalar | 12.11 | 3,405,750 | 905,750 |
| Cari il üzrə yığılmış zərər | 12.12 | (3,739,767) | (864,237) |
| Yığılmış zərər | | (873,549) | (9,312) |
| **CƏMİ KAPİTAL** | | **(1,107,566)** | **132,201** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **281,053** | **199,588** |

**Nail Mərdanov**
**İdarə Heyətinin sədri**

**Emin Bayramzadə**
**Maliyyə şöbəsinin müdiri - baş mühasib**

*"İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" Publik Hüquqi Şəxs*
***Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat***
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | - | - | 1,000,000 |
| Sair əməliyyat gəliri | - | - | 35 |
| **Cəmi gəlirlər** | | **-** | **1,000,035** |
| İnzibati xərclər | 12.12 | (3,653,753) | (1,796,959) |
| Maliyyə xərcləri | 12.12 | (12,011) | (6,089) |
| Digər xərclər | 12.12 | (14,419) | (6,003) |
| Amortizasiya xərci | 12.12 | (59,584) | (47,171) |
| **ƏMƏLİYYAT ZƏRƏRİ** | | **(3,739,767)** | **(856,187)** |
| Mənfəət vergisi | | - | (8,050) |
| **Dövr üzrə zərər** | | **(3,739,767)** | **(864,237)** |
| Digər məcmu gəlir | | | - |
| **Dövr üzrə cəmi məcmu zərər** | | **(3,739,767)** | **(864,237)** |

**Nail Mərdanov**
**İdarə Heyətinin sədri**

**M.Y**

**Emin Bayramzadə**
**Maliyyə şöbəsinin müdiri - baş mühasib**

| | Dövlət büdcəsi ilə hesablaşmalar | Ödənilmiş nizamnamə kapitalı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixinə** | **905,750** | **100,000** | **(873,549)** | **132,201** |
| Dövlət büdcəsindən ayrılmış vəsaitlər | 2,500,000 | - | - | 2,500,000 |
| Nizamnamə kapitalına yönəldilmişdir | - | - | - | - |
| Dövr üzrə cəmi məcmu zərər | - | - | (3,739,767) | (3,739,767) |
| **31 dekabr 2024-cü il tarixinə** | **3,405,750** | **100,000** | **(4,613,316)** | **(1,107,566)** |

**Nail Mərdanov**
**İdarə Heyətinin sədri**

**M.Y**

**Emin Bayramzadə**
**Maliyyə şöbəsinin müdiri - baş mühasib**

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axını** | | | |
| Xidmətlərin göstərilməsindən daxilolmalar | - | - | 1,000,000 |
| Sair daxilolmalar | - | - | 35 |
| Xidmətlərin göstərilməsindən ƏDV daxilolması | | - | 180,000 |
| İşçilərlə bağlı xərclərin ödənişi | 12.12 | (2,771,265) | (933 449) |
| İşçilərlə bağlı digər ödənişlər | 12.12 | (675,496) | (598,855) |
| Material və digər ehtiyatlar ilə bağlı ödənişlər | 12.5-12.6 | (34,550) | (35,934) |
| İnzibati və digər ödənişlər | 12.12 | (130,362) | (273,356) |
| ƏDV üzrə dövlət büdcəsinə ödənişlər | | - | (180,000) |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | | **(3,611,673)** | **(841,559)** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | 12.1 | (39,941) | (1,679) |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | 12.2 | (148,196) | (156,202) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | | **(188,137)** | **(157,881)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axını** | | | |
| Dövlət büdcəsindən ayrılmış vəsaitlər | 12.11 | 2,500,000 | 5,750 |
| Uzunmüddətli borc vəsaiti üzrə daxilolma | 12.9 | 1,300,000 | |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul axınları** | | **3,800,000** | **5,750** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **190** | **(993,690)** |
| Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 12.4 | 560 | 994,250 |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 12.4 | **750** | **560** |

**Nail Mərdanov**
**İdarə Heyətinin sədri**

**M.Y**

**Emin Bayramzadə**
**Maliyyə şöbəsinin müdiri - baş mühasib**